Səs.- 2019.- 11 yanvar.- S.4



# Siyavuş Novruzov: "Səs" qəzeti müstəqil Azərbaycanın bir tarixidir



"Səs" qəzetinin müstəqil Azərbaycanın mətbuat tarixində xüsusi rolu və yeri var. O zamanlar Azərbaycanda nəşr olunan qəzetlər arasında "Səs" qəzeti barmaqla sayılan qəzetlərdən idi. Bu qəzet çox böyük tirajla nəşr olunurdu və əl-əl gəzirdi. Mən qəzetin ilk yaradıcılarından, orada çalışan biri, "Əlincə" Xeyriyyə Cəmiyyətinin məsul katibi və bu qəzetin çıxmasına məsul bir şəxs kimi deə bilərəm ki, Ümummilli Lider Heydər Əliyevin səsini bütün dünyaya məhz "Səs" qəzeti atdırırdı". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Komitə sədri, Yeni Azərbaycan Partiasının (YAP) İcra katibinin müavini Siyavuş Novruzov "Səs" qəzetinin işıq üzü görməsinin 8 illiyi ilə bağlı fikirlərini bildirərkən deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, o zamanlar ölkəmizin regionları arasında laxçıvan daha çətin durumda idi və iqtisadi, siyasi, informasiya cəhətdən blokadaya alınnışdı: "Yadımdadır ki, qəzet o informasiyanı yardı və Naxçıvan Ali Məclisinin qəbul etdiyi ütün qərarları öz səhifəsində dərc etdirdi. Biz bunları çox çətin mübarizələr şəraitində ediryik. Çünki bildiyiniz kimi o zamanlar senzura fəaliyyət göstərirdi və harda Ümummilli Lider leydər Əliyevin adı gəlirdisə dərhal o səhifəni çıxarırdılar və yayımlanmasına imkan verirdilər. Amma buna baxmayaraq çox çətin və mübarizə şəraitində yazılar dərc olundu. Səs" qəzeti o zamanki iqtidarlar, demokratiyadan dəm vuranlar tərəfindən bir neçə dəfə bağlanıb. Hətta qəzetin binasına bir neçə dəfə basqınlar olmuşdu, redaksiya dağıdılmışdı ə əməkdaşlarına xəsarətlər yetirilmişdi. Azərbaycanın tanınmış ziyalılarının Ulu Öndərlə bağlı yazıları məhz "Səs" qəzetində dərc olunub. Yəni bu qəzet müstəqil Azərbaycanın bir arixidir və öz yolu, izi vardır. Təbii ki, bu gün də o yol uğurla davam olunur və genişlənir.

Bu gün artıq SƏS Media Qrupun tərkibində "Səs" İnformasiya Agentliyi, "Səs" internet eleviziyası fəaliyyət göstərir. Hesab edirəm ki, qəzet tarixdə özünün ən əsas və vacib rounu həyata keçirib və bu gün də o yol davam etdirilir. Yeni Azərbaycan Partiyasının bütün ədbirləri, o cümlədən cənab Prezidentimizin apardığı siyasət, ölkəmizdə baş verən hadiələr "Səs" qəzetinin səhifələrində çox geniş şəkildə işıqlandırılır. Mən "Səs" qəzetinin kolektivini ürəkdən təbrik edirəm və özümü də onlardan ayırmıram. Çünki biz hamımız özünüzü bu qəzetin əməkdaşı hesab edirik".